**Azərbaycan İkinci Qarabağ müharibəsində ermənilərin gözünün odunu elə alıb ki, vurmamışdan yıxılırlar. Artıq ölkəmizdə müəyyən bir məsələ ilə bağlı sərt bəyanat səslənən kimi, Ermənistanda əl-ayağa düşürlər. Erməni isteblişmenti tərəfindən bununla bağlı çoxsaylı bəyanatlar var. Azərbaycanın, guya Laçın dəhlizini qapatmaq istəməsi də bunlardan biridir. Məlumdur ki, belə spekulyativ fikirlər diqqəti Qarabağ ermənilərinə yönəltmək məqsədi daşıyır. Elə fon yaradılır ki, sanki Bakı onların, belə demək mümkünsə, nəfəsliyini bağlamaq niyyətindədir.**

# Laçın və Zəngəzur dəhlizləri eyni statusda olmalıdır

Birincisi, Azərbaycan Laçın yolunu bağlamaq istəsə, çoxdan bağlayardı. Bunun üçün kimdənsə soruşmağa, icazə almağa ehtiyac yoxdur. Ölkəmiz hələlik buna getmir. Əksinə, rəsmi Bakı Laçın dəhlizinə alternativ yol ərsəyə gətirməklə, həm 10 noyabr üçtərəfli Bəyanatına əməl etdiyini, həm də ölkəmizin erməni əsilli vətəndaşlarının diqqətdən kənarda qalmadığını sübuta yetirdi.

İkincisi, Azərbaycanın Rusiya sülhməramlılarına hücum edəcəyini düşünməkdən axmaq bir fikir ola bilməz. Bu,



heç diletantların da ağlına gəlməz. Ancaq erməni başbilənlər bunu iddia edəcək qədər həyasızlaşıblar.

Bakının "beynəlxalq ictimaiyyətin reaksiyası" ilə də hədələməyə ehtiyac yoxdur. Bakı son iki ildə belə təmayülləri çox görüb və qorxmur.

Bir qədər əvvəl, noyabrın 10-da Ermənistanın baş naziri Nikol Paşinyan da hökumətin iclasında demişdi ki, Azərbaycan Prezidenti İlham Əliyev Ermənistanın, guya üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməməsi bəhanəsi ilə Laçın dəhlizinin bağlanmasına nail olmağa və Qarabağ ermənilərini qovmağa çalışır.

Ölkəsində onsuz da ölü siyasətçi hesab edilən Paşinyan əsas məqamları qoyub lazım olmayan məsələlərdən danışır. Halbuki, onun 10 noyabr Bəyanatında nəzərdə tutulmuş əsas öhdəliklərinin söz açması lazımdır. Erməni baş nazirin Azərbaycanın Qərb rayonları ilə Naxçıvanı birləşdirəcək nəqliyyat-kommunikasiya xətlərinin nə vaxt açılacağından danışması vacibdir. Bu onun birbaşa imzası ilə təsdiqlənmiş öhdəliyidir.

Azərbaycanda hüquqşünaslar hesab edirlər ki, Zəngəzur dəhlizi xüsusi statusu olan bir dəhlizdir. Kommunikasiya xətləri dedikdə isə nəqliyyat əlaqələri nəzərdə tutulur. Bu iki termin arasında oxşarlıq çoxdur. Bakı Dövlət Universitetinin beynəlxalq ümumi hüquq kafedrasının müdiri, professor Rüstəm Məmmədovun sözlərinə görə, Azərbaycan hesab edir ki, əgər Laçın dəhlizi varsa, Zəngəzur dəhlizi niyə olmasın? Ermənistan Azərbaycanın Qarabağ bölgəsi, Xankəndi ilə Laçın dəhlizi ilə əlaqə qura bilirsə, ölkəmiz Zəngəzur dəhlizi vasitəsilə Naxçıvanla birbaşa əlaqəyə malik olmalıdır: "Ermənistan Zəngəzur dəhlizi məsələsinə mənfi münasibət bəsləyir. Bu qəbulolunmazdır. Çünki, əgər Zəngəzur dəhlizi açılmasa, Laçın dəhlizi bağlanacaq. Beləliklə, Ermənistanın Xankəndi ilə əlaqəsi üzüləcək... Biz həm kommunikasiya xətlərinin açılmasını, həm də dəhlizin işə düşməsini istəyirik. Belə olan təqdirdə, Zəngəzur dəhlizi üçün də status olmalıdır. Ümumən, bu kommunikasiya xətti Azərbaycan üçün son dərəcə vacibdir. Ermənilər bunu çox gözəl bildiklərindən manevr yaratmağa çalışırlar. Əgər razılaşma əldə olunarsa və sözügedən dəhliz işə düşərsə, hər iki tərəf bu dəhlizdən istifadə edə biləcək... Əgər Ermənistan çox israr edərsə, biz də onlara heç bir yol verməyəcəyik. Nə Laçın dəhlizi, nə Zəngəzur dəhlizindən istifadə edə biləcəklər".

Yeri gəlmişkən, Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu da bildirib ki, Azərbaycan Laçın və Zəngəzur dəhlizlərinin eyni statusda olması fikrində haqlıdır. İndi əsas olan budur ki, ermənilər Laçın yolunun bağlanması ehtimalından qorxuya düşüblər. Azərbaycan isə hələlik, məsələ ilə bağlı son sözünü deməyə tələsmir. Amma məcbur olsa, Bakı da mövcud istiqamətdə qətiyyətli addımlar atacaq.

***Paşa ƏMİRCANOV,***
***"Xalq qəzeti"***

## Ekspert rəyi



**Tofiq ZÜLFÜQAROV,**
**siyasi şərhçi**

Ermənistanın İkinci Qarabağ müharibəsində məğlubiyyətindən və 10 noyabr üçtərəfli Bəyanatını imzalamasından sonra bir sıra məsələlər, o cümlədən, Zəngəzur dəhlizinin açılması gündəmə gəlib. Bu, məlum bəyanatın maddələrindən və Ermənistanın öhdəliklərindən biridir. Ona görə Azərbaycan Zəngəzur dəhlizinin açılmasında israrlıdır.

Amma son günlərdə bəzi populistlərin Zəngəzur dəhlizi açılmırsa, "LAÇIN DƏHLİZİNİ BAĞLAYIN" kimi bəyanatlar səsləndirməsi bir qədər qəribə təsir bağışlayır. Təbii ki, onları başa düşmək olar. Əminəm ki, hər kəsin məqsədi ölkəmizə silahla, qeyri-konstitusiya fəaliyyəti və təbliğatı ilə məşğul olan, Laçın dəhlizindən qaçaqmalçılıq, narkotik maddələrin tranziti üçün istifadə edən insanları bu fürsətdən məhrum etməkdir. Amma Azərbaycan qanunlarına zidd olmayan fəaliyyətlər, o cümlədən, humanitar təmaslar dayandırılmadan davam edə bilər və etməlidir.

Hesab edirəm ki, sözügedən dəhlizlərdə elə bir rejim təmin oluna bilər ki, qanunazidd fəaliyyətlərin, o cümlədən, silah daşınmasının qarşısı asanlıqla alınar. Bunun üçün hazırkı qanunlarımıza uyğun formada sərhəd-keçid məntəqələrində postlardan əlavə, sərhəd xidmətini, gömrük xidmətini və fitnes baytarlıq nəzarətini yaratmaq zəruridir. Zənnimcə, bu tədbirlərin görülməsi bir çox qanunsuzluqların qarşısını almaq üçün kifayətdir. Bu, həm də funksiyaların bölünməsinə imkan verəcək. Bu halda Azərbaycanın əlaqədar dövlət strukturları, o cümlədən, Sərhəd Xidməti müvafiq qanunların tələblərini təmin edəcək. Rusiya sülhməramlıları isə 10 noyabr 2020-ci il Bəyanatının müddəalarına uyğun şəkildə təhlükəsizliyi təmin etməyə davam edəcəklər.

Mövcud yanaşma Ermənistanı da əks-təbliğatdan məhrum edəcək. Nəticədə problemin həlli, vəziyyətin münaqişəsiz çözümü təmin olunacaq.

Hesab edirəm ki, sərhəd-keçid məntəqələrində mümkün təxribatların qarşısını almaq üçün postlarımızın fəaliyyətini daimi onlayn rejimdə izləmək məsləhət olardı...